

GÖYƏRÇİN
ISSN- 0207- 4710
12
2005-ci il
OYUNLAR
ŞEİRLƏR
NAĞILLAR
NƏĞMƏLƏR



Sözləri *Rafiq YUSİFOĞLUNUN*
Musiqisi *Oqtay RƏCƏBLİNİNDİR.*

# AZƏRBAYCAN YAŞAYIR

Hərəmiz bu vətənin
Parçası, zərrəsiyik.
Yağılara yurdumun
Parçası, zərrəsi yük.

Dünyanın hər yerində
Yaşayır soydaşımız.
Düşmənlərin başına
Ələnsin goy daşımız!

NƏQARAT

Bu vətənin yolunda
Birləşsin əllərimiz!
Sevinsin dağlarımız,
Sevinsin çöllərimiz!

Necə ki, ruhumuz var,
Necə ki, dilimiz var,-
Azərbaycan yaşayır,-
Yurdumuz, elimiz var!

Nə zaman ki, birləşir
Hissim, ruhum, bədənim,
Dünyanın özü boyda
Bir dünyadır vətənim.

Kim yurdumun ruhunu
Ürəyində daşıyır,
Onun köksü üstündə
Azərbaycan yaşayır.

NƏQARAT




Rəssam
Leyla